

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 223 (23.865)

*1 dekabr 2021-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Noyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pakistan İslam Respublikasının müdafiə istehsalatı naziri, Azərbaycan-Pakistan Birgə Komissiyasının həmsədri xanım Zobaida Cəlalı qəbul edib.

Prezident İlham Əliyev Bakıda keçiriləcək Azərbaycan-Pakistan Birgə Komissiyasının iqtisadi əməkdaşlığın genişlənməsi, ticarət dövriyyəsinin həcminin artırılması, biznes dairələri arasında əlaqələrin səviyyəsinin qaldırılması işinə xidmət edəcəyinə əminliyini bildirib. Dövlətimizin başçısı investisiya qoyuluşu üçün prioritetlərin müəyyənləşdirilməsinin zəruriliyini də diqqətə çatdırıb.

Azərbaycan Respublikasının Prezidenti Vətən müharibəsi dövründə Pakistanın Azərbaycanın ədalətli mövqeyinə verdiyi davamlı siyasi-mənəvi dəstəyə və qardaş mövqeyinə görə bir daha minnətdarlığını bildirib və Azərbaycan xalqının bunu yüksək qiymətləndirdiyini vurğulayıb.

Nazir Zobaida Cəlal ölkəsinin Azərbaycan ilə qardaşlıq əlaqələrini yüksək qiymətləndirdiyini, Azərbaycan-Pakistan Birgə Komissiyasının iclasının da əlaqələrimizin genişləndirilməsinə xidmət edəcəyini qeyd edib. Görüşdə əməkdaşlıq münasibətlərinin bütün sahələr üzrə genişləndirilməsinin əhəmiyyəti qeyd olunub. Azərbaycan-Pakistan-Türkiyə üçtərəfli əməkdaşlıq formatının müxtəlif istiqamətlərdə daha da genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb. Ölkələrimizin həm ikitərəfli müstəvidə, həm də beynəlxalq təşkilatlarda daim bir-birini dəstəklədikləri xüsusi qeyd olunub.



## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti noyabr ayı ərzində bir sıra qərarlar qəbul edib. Belə ki, Nazirlər Kabinetinin 2021-ci il 12 noyabr tarixli Qərarı ilə “Naxçıvan Beynəlxalq Hava Limanında xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonundan istifadə Qaydaları” təsdiq edilmişdir. Həmin Qaydalara əsasən VİP salonunda Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin müvafiq Qərarı ilə təsdiq edilmiş “Naxçıvan Beynəlxalq Hava Limanında xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonun xidmətlərindən istifadə hüququ olan Naxçıvan Muxtar Respublikasının vəzifəli şəxslərinin Siyahısı”nda və “Naxçıvan Beynəlxalq Hava Limanında xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonun xidmətlərindən istifadə hüququ olan xarici dövlətlərin və beynəlxalq təşkilatların nümayəndələri Siyahısı”nda (bundan sonra – Siyahılar) nəzərdə tutulmuş şəxslərə, habelə bu Qaydalarda nəzərdə tutulmuş digər şəxslərə xidmət göstərilir. VİP salonundan istifadə etmək hüququna malik olan şəxslərin əlyükü və baqajı, həmçinin onları yola salan şəxslər ümumi qaydada baxışdan keçirilirlər.

Nazirlər Kabinetinin 2021-ci il 11 noyabr tarixli Qərarı ilə “Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin İnkişafı İdarəsi haqqında Əsasnamə” təsdiq edilmiş və “Bir sıra mərkəzi icra hakimiyyəti orqanlarının strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısının təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2010-cu il 16 avqust tarixli 76 nömrəli Qərarında dəyişiklik edilmişdir.

Eyni zamanda Nazirlər Kabinetinin 2021-ci il 30 noyabr tarixli Qərarı ilə “Naxçıvan İpoteka Fondu” Açıq Səhmdar Cəmiyyətinin vəsaiti hesabına verilən ipoteka kreditləri üzrə borcalanın (borcalanların) aylıq məcmu gəlirinin hesablanması Qaydası”nda dəyişiklik edilmişdir. Dəyişikliyə əsasən borcalanın (borcalanların) aylıq məcmu gəliri hesablanarkən Azərbaycan Respublikasının hüdudlarından kənardakı mənbələrdən daxil olan gəlirlər nəzərə alınmır.

Nazirlər Kabinetinin eyni tarixli digər bir Qərarı ilə “Naxçıvan Xalça və İplik İstehsalı Müəssisəsi” Məhdud Məsuliyyətli Cəmiyyətinin Nizamnaməsi” təsdiq edilmişdir.

Qəbul olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar.nakhchivan.az)* tanış olmaq mümkündür.

## Cənubi Qafqazda meydana gələn yeni geosiyasi reallıqlar təhlil olunub



*AMEA Naxçıvan Bölməsində Rəyasət Heyətinin növbəti iclası keçirilib.* Bölmənin sədri, akademik İsmayıl Hacıyev iştirakçıları iclasın gündəliyinə çıxarılan məsələlərlə tanış edib.

Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Qafqaz tarixi şöbəsinin müdiri, tarix elmləri doktoru, dosent Emin Şıxəliyev “İkinci Qarabağ müharibəsi və Cənubi Qafqazda meydana gələn yeni geosiyasi reallıqlar” mövzusunda elmi məruzə edib. 30 illik zaman müstəvisində tariximizə nəzər salan tədqiqatçı əzəli torpaqlarımıza qarşı irəli sürülən saxta iddialar, Qarabağ məsələsinin ortaya çıxma səbəbləri, problemin həlli istiqamətində görülən işlər, BMT-nin qəbul etdiyi qətnamələr, ATƏT-in Minsk Qrupunun səmərəsiz fəaliyyəti və digər məsələlərlə bağlı fikirlərini bölüşüb, reallıqları təhlil edib. Dünyadakı güc təmərküzləşməsi, geosiyasi maraqlar, süni münaqişə ocaqları, beynəlxalq hüquq və Qərb dövlətlərinin sərgilədikləri ikili standartlar məruzənin aparıcı mövzuları olub.

Bildirilib ki, 30 ilə yaxın düşmən tapdağı altında olan tarixi Azərbaycan torpaqları mütəşəkkil əks-hücum əməliyyatı sayəsində işğaldan azad olundu. Bu qələbə Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə hərb və siyasət meydanındakı qətiyyətli mübarizənin bəhrəsidir.

Alim Qarabağ məsələsində Türkiyə, Rusiya, Fransa, İran, kimi dövlətlərin mövqeyindən, Şuşa Bəyannaməsinin imzalanması və Azərbaycan-Türkiyə strateji müttəfiqliyinin önəmindən söz açıb. Zəngəzur dəhlizinin əhəmiyyətindən, daşıyacağı mühüm tarixi missiyadan bəhs edən tədqiqatçı türk dövlətlərinin birliyinin labüd tarixi reallıq olduğunu diqqətə çatdırıb.

İclasda digər məsələlər də müzakirə olunub.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## Turizmin müasir vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib



“Naxçıvan” Universitetində “Naxçıvan Muxtar Respublikasında turizmin müasir vəziyyəti və inkişaf perspektivləri” mövzusunda elmi konfrans keçirilib.

Konfransda çıxış edən universitetin rektoru, dosent Nurlana Əliyeva bildirib ki, qədim tarixi, zəngin keçmişi və təbiəti ilə seçilən Naxçıvanda bu gün gəlirli sahələrdən biri olan turizmin inkişafına xüsusi diqqət göstərilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin muxtar respublikada həyata keçirdiyi uğurlu sosial-iqtisadi islahatlar artıq turizmi inkişaf edən bir sektora çevirib. Son illər qədim diyarın tarixi-mədəni irsinin tanıdılması, tarixi və mədəni abidələrin bərpa olunması, müalicə mərkəzlərinin yenidən qurulması, yeni otel və istirahət mərkəzlərinin tikilməsi, ən ucqar yaşayış məntəqələrində müasir tələblər səviyyəsində yaradılmış istirahət, ticarət, xidmət və səhiyyə ocaqlarının istifadəyə verilməsi, avtomobil yollarının yenilənməsi turizmin dinamik inkişafına səbəb olub. Bu gün muxtar diyarda kənd və yaşıl turizmin potensialından da səmərəli istifadə edilir, dini turizmin təbliği istiqamətində mühüm işlər görülür.

Konfransda İqtisadiyyat kafedrasının dosenti, iqtisad üzrə fəlsəfə doktoru Əli Cabbarovun, kafedranın müəllimi Ülviyyə Əliyevanın, universitetin tələbəsi Arzu Əsgərovun məruzələri dinlənilib.

Sonda məruzələr ətrafında müzakirələr aparılıb.

***“Naxçıvan” Universitetinin mətbuat xidməti***

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” 2019-cu il 3 aprel tarixli Sərəncamının icrası istiqamətində növbəti tədbirlər keçirilmişdir.*

## Hamiliyə verilmiş ixtisasların tələbələrinin iştirakı ilə tədbirlər keçirilib



Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin təşkilatçılığı ilə “Azerfon” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Naxçıvan Dövlət Universitetində “Mobil rabitənin əsasları” mövzusunda təlimə başlanılıb.

Tədbirin rəsmi hissəsində Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev, Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar naziri Vüsal Sevdimaliyev çıxış edərək muxtar respublikada rabitə və yeni texnologiyalar sahəsinə göstərilən dövlət qayğısından danışıb. “Azerfon” Məhdud Məsuliyyətli Cəmiyyətinin ictimaiyyətlə əlaqələr üzrə mütəxəssisi Anar Mənsimov mobil rabitənin əsasları barədə məlumat verib, Şəbəkə əməliyyatları şöbəsinin rəisi Elçin Verdiyev isə təlim keçib.

Təlimdə iştirak edən tələbələrə mobil şəbəkənin strukturu, mobil rabitənin təkamülü, standartlar və texnologiyalar, mobil rabitə xidmətləri və yeni texnologiyalar haqqında ətraflı məlumat verilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb. İkigünlük təlim 30 noyabrda yekunlaşıb. Sonda iştirakçılara sertifikat verilib.

Qeyd edək ki, 29 oktyabr Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə “Azerfon” MMC tərəfindən aylıq təqaüd proqramına cəlb edilmiş tələbə şəhid ailəsi üzvlərinə təqaüd kartları da təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

* * *

Noyabr ayının 30-da Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin hamiliyinə verilmiş Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq, eləcə də Dövlət və bələdiyyə idarəetməsi ixtisasları üzrə təhsil alan tələbələri nazirliyin bir neçə struktur qurumunda və Naxçıvan bələdiyyəsində olmuşlar.



Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələr Naxçıvan Şəhər Nikah Evinin, Naxçıvan Şəhər 2 saylı Notariat Ofisinin və Naxçıvan Şəhər İcra və Probasiya Şöbəsinin iş prinsipləri barədə məlumatlandırılmışlar. Tələbələr icra məmurları tərəfindən həyata keçirilən icra prosesində icra işlərinin qeydiyyatının aparılması, həyata keçirilən məcburi icra tədbirləri barədə geniş məlumat əldə etmişlər. Nikah Evində nikah əməliyyatlarının aparılması zamanı tələb olunan sənədlərlə və bu sahədə kargüzarlığın aparılması qaydaları haqqında ətraflı məlumatlar verilmiş, nikaha daxil olmaq üçün ərizə ilə müraciət edən şəxslərin nikah qeydiyyatı aparılması prosedurunda iştirak etmişlər. Notariat Ofisində isə notariat hərəkətlərinin aparılmasının əsas qaydaları ilə praktik olaraq tanış edilmişlər.

Dövlət və bələdiyyə idarəetməsi ixtisası üzrə təhsil alan tələbələrə isə nazirliyin Bələdiyyələrlə iş mərkəzinin fəaliyyət istiqamətləri barədə geniş məlumat verilmiş, eyni zamanda bələdiyyələrdən daxil olmuş aktlarla və mərkəzin arxivi ilə tanış olmuş, bələdiyyə aktlarının araşdırılması işində iştirak etmişlər.

Tələbələr Naxçıvan bələdiyyəsində sənədlərin qeydiyyatı, işlənmə qaydası, rəsmiləşdirilməsi və göndərilməsi qaydaları ilə tanış olmuşlar.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

Tarixin izi ilə

# Şərur qədim diyardır

***Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın sosial-iqtisadi inkişafı, onun tarixinin və mədəniyyətinin öyrənilməsi həmişə dövlətimizin diqqət mərkəzində olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov AMEA Naxçıvan Bölməsinin əməkdaşları ilə görüşündə Naxçıvanın rayonlarının tarixinin yazılmasını mühüm vəzifə kimi qarşıya qoymuşdur. Arxeoloji araşdırmalar göstərir ki, Naxçıvan Azərbaycanın və Yaxın Şərqin ən qədim mədəniyyət mərkəzlərindən biri olmuşdur.***

Naxçıvanın qərbində yerləşən Şərur rayonu da qədim mədəniyyətlərin beşiyi, mühüm mədəniyyət mərkəzlərindən biri kimi tanınmışdır. Şərurun çoxtəbəqəli yaşayış yerləri qədim tariximizin öyrənilməsi üçün dəyərli mənbədir. Son illər aparılan araşdırmalar bu bölgənin Azərbaycan tarixinin öyrənilməsi üçün, xüsusilə əhəmiyyətli olduğunu təsdiq edir.

Şərur rayonunun arxeoloji tədqiqinə XX əsrin 20-ci illərindən başlanmışdır. 1926-cı ildə Azərbaycanı öyrənən və tədqiq edən cəmiyyətin təşəbbüsü ilə Naxçıvanda, o cümlədən Şərur rayonu ərazisində araşdırmalar aparılmışdır. XX əsrin 30-cu illərində Şərur rayonunun bir neçə abidəsində, o cümlədən Şortəpə və Oğlanqalada kəşfiyyat xarakterli tədqiqatlar aparılmış, bu ilkin araşdırmalardan sonra Şərur abidələrinin öyrənilməsi yalnız kəşfiyyat xarakterli araşdırmalarla məhdudlaşdırılmışdır. Şərur rayonunun Dizə kəndi yaxınlığında yerləşən Ovçulartəpədən aşkar olunan əmək alətləri Şərurda insanların 500-300 min il bundan əvvəl məskunlaşdığını təsdiq edir.


Qızqala


Oğlanqala

1983-cü ildə M.M.Hüseynovun, 1987-1990-cı illərdə isə Ə.Q.Cəfərovun rəhbərliyi ilə Qazma mağarasında aparılan qazıntılar Şərurun ən qədim insan məskənlərindən biri olduğunu bir daha təsdiq etdi. Araşdırmalar zamanı müəyyən olundu ki, Qazma mağarasının Paleolit mədəniyyəti Cənubi Qafqaz və Yaxın Şərq ölkələri ilə qarşılıqlı iqtisadi-mədəni əlaqələr şəraitində inkişaf etmişdir. 1988-1989-cu illərdə Oğlanqalada V.B.Baxşəliyevin rəhbərliyi, Maxta Kültəpəsində isə V.H.Əliyev və S.H.Aşurovun rəhbərliyi ilə arxeoloji tədqiqat işləri aparıldı. 1993-cü ildə V.B.Baxşəliyevin rəhbərliyi ilə Şərur rayonunun yüzdən artıq abidəsi qeydə alınaraq "Şərurun arxeoloji abidələri" monoqrafiyasında ümumiləşdirilmişdir. Lakin Şərur abidələrinin geniş tədqiqinə Azərbaycan öz müstəqilliyinə qovuşduqdan sonra başlanmışdır.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və onun layiqli davamçısı Prezident cənab İlham Əliyevin Azərbaycanın tarixi abidələrinə, o cümlədən arxeoloji abidələrin öyrənilməsinə olan diqqəti Azərbaycan abidələrinin tədqiqi üçün əlverişli şərait yaratdı. Azərbaycanın bütün regionlarında tarixi abidələrin araşdırılmasına başlanıldı. Bu baxımdan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun tarixi abidələrimizin bərpası və tədqiqi ilə bağlı verdiyi sərəncamların, xüsusilə böyük əhəmiyyəti olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 6 dekabr tarixdə imzaladığı "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin pasportlaşdırılması və qorunması işinin təşkili haqqında" Sərəncam Naxçıvanın, o cümlədən Şərurun tarixi abidələrinin tədqiqində yeni mərhələnin başlanğıcını qoymuşdur. Tədqiqatlar nəticəsində Şərur rayonu ərazisində 200-dən artıq abidə qeydə alınmış, rayonun folklorunun və etnoqrafiyasının öyrənilməsi sahəsində mühüm addımlar atılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü və yaxından köməkliyi ilə Naxçıvanın bir çox abidələrində araşdırmalar başlanmış, müxtəlif rayonların, o cümlədən Şərurun arxeoloji abidələrinin tədqiqi davam etdirilmişdir. Qeyd etmək lazımdır ki, 2008-ci ildə Azərbaycanda fəaliyyət göstərən 33 ekspedisiyanın 10-u, üç beynəlxalq ekspedisiyanın isə ikisi Naxçıvanda işləmişdir. Naxçıvanın müxtəlif bölgələrində yerləşən abidələrdən Qazma, Ərəbyengicə, Ovçulartəpə, I Maxta Kültəpəsi, Plovdağ, II Kültəpə, Şahtaxtı, Dizə kurqanları, Sumbatan, Oğlanqala, Meydantəpə və digərlərində araşdırmalar aparılmışdır. Bu abidələrimizin öyrənilməsi dövlət qayğısının ən parlaq ifadəsidir.


Ovçulartəpə


Xələc yaşayış yeri

Naxçıvanda beynəlxalq ekspedisiyalar, əsasən, Şərur və Babək rayonları ərazisində işləmişdir. Bu heç də təsadüfi deyildir. Naxçıvanın digər bölgələrində yerləşən abidələr müəyyən dərəcədə tədqiq edilsə də, Naxçıvanın ən qədim bölgələrindən biri olan Şərurun abidələri geniş tədqiqatlarla öyrənilməmişdir. Aparılan araşdırmalar göstərir ki, erkən əkinçilik və maldarlıq mədəniyyətlərinin formalaşmasında, habelə Azərbaycanın Yaxın Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələrində bu regionda yerləşən abidələrin böyük əhəmiyyəti olmuşdur. Belə bir faktı, xüsusilə qeyd etmək lazımdır ki, Eneolit dövrünün sonu və Kür-Araz mədəniyyətinin başlanğıcını əks etdirən abidələr başlıca olaraq Şərur rayonu ərazisində toplanmışdır. Ovçulartəpə, Ərəbyengicə, Xələc bu abidələr sırasına daxildir. Bu abidələrin tədqiqi uzun illərdən bəri dünya tədqiqatçılarını düşündürən problemlərin həll olunması, xüsusilə Kür-Araz mədəniyyətinin mənşəyinin araşdırılması üçün olduqca əhəmiyyətlidir.

Belə abidələrdən biri də Ovçulartəpə yaşayış yeridir. İlkin araşdırmalar göstərir ki, Ovçulartəpədə aşkar olunan mədəniyyətin izləri qərbdə Şərqi Anadoluya, cənubda Urmiya hövzəsinə, şərqdə Mil düzünədək uzanır. Böyük bir regionda formalaşan qədim mədəniyyətlər arasındakı bənzərlik iqtisadi-mədəni əlaqələrin və kommunikasiya sisteminin inkişaf etdiyini göstərir.

2008-ci ildə Şərur rayonunda araşdırılan abidələrdən biri də Ərəbyengicə yaşayış yeridir. Tədqiqatlar zamanı yaşayış yerindən Eneolit və Kür-Araz mədəniyyətinə aid maddi mədəniyyət nümunələri aşkar olunmuşdur. Aşkar edilən arxeoloji materialların təhlili keramika nümunələrində Eneolitdən Kür-Araz mədəniyyətinə keçidi izləməyə imkan vermişdir. Ovçulartəpə və Ərəbyengicədən aşkar olunan arxeoloji materiallar Arazdan cənubda yerləşən Azərbaycan abidələri, xüsusilə Mərənd ətrafında aşkar olunan abidələr və Urmiya rayonunun abidələri ilə yaxın bənzərlik təşkil edir. Şərur abidələrində olduğu kimi, Urmiya və Mərənd abidələrində Eneolit təbəqələri Kür-Araz mədəniyyətinə aid maddi mədəniyyət qalıqları ilə örtülmüşdür. Faktlar Naxçıvan da daxil olmaqla Azərbaycanın cənub bölgələrinin Kür-Araz mədəniyyətinin əsas yaranma ocaqlarından biri olduğunu göstərir.

2014-2019-cu illərdə Qızqala yaşayış yerində aparılan araşdırmalar III minilliyin sonu və II minilliyin əvvəlində Yaxın Şərq və Cənubi Qafqazdakı siyasi hadisələrlə bağlı olaraq Arpaçay vadisində və Şərur ovalığında yerləşən tayfaların müdafiə məqsədilə qalalar inşa etdiyini göstərir. Qızqalada aparılan araşdırmalar Orta Tunc dövrü Boyalı qablar mədəniyyətinin Naxçıvanda meydana çıxdığını deməyə imkan verir. Qızqalada aparılan arxeoloji araşdırmalar eradan əvvəl III minilliyin sonlarından başlayaraq Naxçıvanda şəhər-dövlətlərin yarandığını təsdiq etmişdir. 2008-ci ildə Oğlanqalada aparılan tədqiqat işləri Naxçıvan ərazisində dövlətçilik ənənələrinin uzun müddət davam etdiyini göstərdi. Tədqiqat zamanı Oğlanqaladan aşkar olunan mixi yazılar bu yaşayış yerinin mühüm inzibati və siyasi mərkəz olduğunu göstərmişdir. Aparılan araşdırmalar zamanı Oğlanqalanın ətrafında Dəmir dövrünə aid bir neçə yaşayış yeri və qəbiristanlığın aşkar olunması bunu bir daha təsdiqləmişdir. Araşdırmalar göstərir ki, eradan əvvəl II minilliyin sonlarından Oğlanqala ətrafında məskunlaşan qədim tayfalar I minilliyin əvvəllərində şəhər-dövlətin əsasını qoymuşlar. Şübhəsiz ki, müdafiə tədbirlərinin görülməsi Azərbaycanın qonşuluğundakı Assuriya və Urartu dövlətlərinin basqınları ilə bağlı olmuşdur. Bu dövrdə Naxçıvanda Qız qalası, Sədərək qalası, Çalxanqala, Qazançı qalası, Şahtaxtı qalası və digər mühüm müdafiə istehkamları da tikilmişdir.

Aparılan araşdırmalar zamanı Şərur rayonunda məskunlaşan qədim tayfaların ictimai quruluşu və həyat tərzi ilə bağlı xeyli maddi mədəniyyət nümunələri aşkar edilmiş, bölgənin tarixini ardıcıllıqla izləmək mümkün olmuşdur.

*Şübhə etmirik ki, gələcək araşdırmalar zamanı Şərur ovalığında yeni abidələr aşkar olunacaqdır. Bu regionda yerləşən abidələrin tədqiqi yalnız Azərbaycan tarixinin öyrənilməsi üçün deyil, həmçinin Yaxın Şərq mədəniyyətlərinin öyrənilməsi üçün olduqca əhəmiyyətlidir. Yaxın Şərq tarixinin bir sıra problemləri Naxçıvan abidələri araşdırılmadan həll edilə bilməz. Tarixboyu Şimalla-Cənub, Şərq-Qərblə arasında mühüm strateji məntəqə və körpü rolunu oynayan Naxçıvan qədim mədəniyyətlərin və tarixi hadisələrin də sirlərini özündə yaşatmaqdadır.*

**Vəli BAXŞƏLİYEV**
*AMEA-nın müxbir üzvü*

# Bələdiyyələr muxtar respublika ərazisində kommunal xidmətlərin göstərilməsində fəal iştirak edir

Muxtar respublikamızda kommunal müəssisələrin, bələdiyyələrin, yerli icra orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi daim diqqət mərkəzində saxlanılır. Belə ki, kommunal xidmətlərin daha da yaxşılaşdırılması, məişət tullantılarının vaxtında yığılaraq daşınması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir, həmçinin bələdiyyələr üçün müasir tələblərə cavab verən kommunal təyinatlı texnikalar alınaraq istifadəyə verilir. İstifadəyə verilən yeni texnikalar kommunal xidmətlərin yaxşılaşdırılması ilə bərabər, ekoloji-sanitar təmizliyin də qorunmasına müsbət təsirini göstərir. Məhz bunun nəticəsidir ki, koronavirus infeksiyasının muxtar respublika ərazisində nəzarətdə saxlanılmasına nail olunub, yoluxma sayı digər regionlarla müqayisədə əhəmiyyətli dərəcədə aşağı səviyyədədir.





Qürur hissi ilə deyə bilərik ki, müasir üslubda tikilən kənd mərkəzlərində bələdiyyələr üçün müasir iş şəraiti yaradılır, fəaliyyətlərinin günün tələbləri səviyyəsində qurulması üçün lazımi infrastruktur formalaşdırılır. Bu istiqamətdə həyata keçirilən tədbirlərin əsas məqsədi əhaliyə göstərilən xidmətin səviyyəsini daha da yüksəltməkdən ibarətdir. Hazırda muxtar respublikada 170 bələdiyyə fəaliyyət göstərir. Bələdiyyə qanunla müəyyən edilmiş ərazi hüdudları daxilində yerli özünüidarəetmə formasıdır. Bələdiyyənin öz mülkiyyəti və yerli büdcəsi olur və o qanunvericiliklə səlahiyyətlərinə aid edilmiş yerli əhəmiyyətli məsələləri müstəqil surətdə həll edir. Qanunvericiliyə müvafiq olaraq bələdiyyələrin bir vəzifəsi də bələdiyyə ərazilərinin abadlaşdırılması, məişət tullantılarının yığılması və zərərsizləşdirilməsi, eyni zamanda ətraf mühitin çirklənməsinin qarşısının alınmasından ibarətdir. Təbii ki, həmin vəzifələrin yerinə yetirilməsindən ötrü bələdiyyələrə hərtərəfli şərait yaradılmalıdır.

2017-ci ilin əvvəlindən etibarən kənd yaşayış məntəqələrində məişət tullantılarının yığılması, daşınması və zərərsizləşdirilməsi xidmətlərinin bələdiyyələr tərəfindən həyata keçirilməsinə başlanılıb və bu layihə uğurla davam etdirilir.

Bələdiyyələr öz ərazilərində məişət tullantılarının yığılmasına, nəzərdə tutulan müvafiq sahəyə daşınmasını və zərərsizləşdirilməsini həyata keçirir. Qeyd edək ki, son illərdə 62 ədəd kommunal təyinatlı nəqliyyat vasitəsi, 4 ədəd xidməti minik avtomobili, 1360 ədəd məişət tullantısı konteyneri bələdiyyələrin və kommunal müəssisələrin istifadəsinə verilmişdir ki, bu da, öz növbəsində, onların daha operativ işləmələrinə şərait yaratmışdır. Alınmış 1360 ədəd məişət tullantısı konteynerinin 1123 ədədi bələdiyyələrə verilmişdir. Cari ilin noyabrında muxtar respublika bələdiyyələrinə kommunal təyinatlı 16 traktor və qoşqusu, 2 "NAZ Lifan-330" markalı avtomobilin təqdim olunması bu istiqamətdə həyata keçirilən tədbirlərin tərkib hissəsidir.

Məlumat üçün qeyd edək ki, yeni kommunal təyinatlı 16 traktor və qoşqusu Şərur rayonunun Gümüşlü, Kürçülü, Oğlanqala və Dərvişlər, Babək rayonunun Vayxır, Yuxarı Uzunoba və Didivar, Ordubad rayonunun Aşağı Əndəmic və Üstüpü, Culfa rayonunun Əlincə və Kırna, Şahbuz rayonunun Kükü və Külüs, Kəngərli rayonunun Çalxanqala və Böyükdüz, Sədərək rayonunun Qaraağac bələdiyyələrinin istifadəsinə verilmişdir. Həmçinin Şərur və Ordubad bələdiyyələrinə hər birinə 1 ədəd "NAZ Lifan-330" markalı minik avtomobili təqdim edilmişdir. İstifadəyə verilən yeni texnikalar qeyd olunan yaşayış məntəqələrində əhaliyə göstərilən kommunal xidmətlərin səviyyəsini daha da yüksəldəcək, məişət tullantılarının vaxtında daşınmasına hərtərəfli şərait yaradacaqdır.

İnanırıq ki, bundan sonra da bələdiyyələr fəaliyyətlərini daha yüksək səviyyədə əhali ilə birgə quracaq, işin səmərəliliyinin artırılması baxımından səy və bacarıqlarını əsirgəməyəcək. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin də dediyi kimi: ***"Bələdiyyələr də fəaliyyətlərini qanunauyğun olaraq həyata keçirməlidirlər. Bələdiyyələr, sadəcə, yaradılmış formal təşkilat deyil, onlar seçilmiş təşkilatlardır. Ona görə də əhali ilə qarşılıqlı əlaqə qurulmalı, rayon icra hakimiyyətləri bələdiyyələrlə işə üstünlük verməli, işin səmərəliliyi artırılmalıdır. Bələdiyyələr bu gün dövlətin xalq tərəfindən seçilmiş orqanı kimi fəaliyyətlərini Azərbaycan Respublikasının müvafiq qanununa uyğun qurmalıdır".***

**Nuray ƏSGƏROVA**

# Azadlıq ətirli bir ilin mübarək, Laçınım



***Ana yurdum Azərbaycanın Qarabağ guşəsindən, Qızılboğaz dağının fövqündən, şərəfli tarixin minillik əzəmətindən boylanan, Laçınım, Zəfər ətirli bir ilin, azadlığın və hürriyyətin mübarək olsun. Yurdunda "Qaranlıq kaha", "Bayqara" mağaraları ilə ilk insanın səsindən, nəfəsindən xəbər verən, Ağoğlan qəsri, Dəmrovlu Pir məbədi, Məlik-Əjdər türbəsi, Uşaq qalası, Kar gümbəz abidələri ilə türk xalqının əsrlərə sığmayan mədəniyyətini özündə yaşadan, köksünü Sarı Aşığın şəninə qoşduğu bayatılara məskən edən, Vətənimə Ələsgər Novruzov, Əvəz Verdiyev, Fazil Mehdiyev, Kamil Nəsibov, Oqtay Güləliyev, Qorxmaz Eyvazov kimi Milli qəhrəmanları bəxş edən, İkinci Qarabağ savaşımızda bir mərmi belə, atmadan düşmənin murdar ayağını biabırcasına torpağından dəf edən qəhrəmanlar yurdum, məğrur qalam. Bir il ötdü o qürur duyduğumuz, xeyirin şər üzərində qələbə çaldığı, azadlıq sözlərinin sənin də taleyinə yazıldığı 1 dekabr tarixindən. Bir daha səni bütün xalqım adından salamlayıb, gözün aydın olsun,– deyirəm...***

Tarix çox şeylərə şahid olub, çox hadisələr görüb, Laçınım. Vaxtilə bol ruzili bağların, min adda naz-nemətin XX əsrin 70-ci illərində ana Həkərinin laylasıyla böyümüş, yalçın qayaların dəyanətindən dərs almış zəhmətsevər, qoçaq xalqının sayəsində sənin də tarixində şad-xürrəm keçən dövrlər kimi xatırlanır. Bir tərəfi Qarabağ silsiləsinin yamyaşıl, atlas geyimli yamaclarına, meşələrinə, digər tərəfi isə Zəngəzur dağlarına söykənən bənzərsiz, tayı-bərabəri olmayan torpaqların həmin illərdə ulu öndərin məqsədyönlü siyasəti ilə tezliklə dirçəldi. 1970-1980-ci illərdə, qısa zaman kəsiyində sosial-iqtisadi inkişafın sürətlə irəlilədi, yüzdən artıq kəndinə avtomobil yolu, su kəməri, işıq çəkildi, Şuşaya gedən yolun əsaslı təmir edildi, çoxsaylı sosial obyektlər inşa olunaraq xalqının ixtiyarına verildi. Bir sözlə, elimizin Vətən, xalq qədir-qiyməti bilən oğulları tez bir zamanda sənə inkişaf və tərəqqi siması qazandırmaqla regionun ən gözəl şəhərlərindən birinə çevrildi. Lakin illərlə ocağımızın başında əyləşib, çörəyimizdən yeyib, suyumuzdan içən xain düşmən məkrli istəklərlə, xam xəyallarla və işğalçılıq arzuları ilə Qarabağın üzərinə hücum etdi. Çətindir, Laçınım, çox çətindir həmin illərə qayıtmaq. 1992-ci il 18 may tarixdə səninlə birgə Xocalıdan, Şuşadan sonra növbəti dəfə yenə qəlbimiz qubar bağladı, ümidlərimiz puç oldu, arzularımız sanki bir quş qanadında ərşə ucaldı. Çünki bu tarix Xocalı kimi mərd igidlər yurdundan, Şuşa kimi elm-irfan ocağından sonra səni də bizdən aldı. Bu qanlı işğal nəticəsində 264 nəfər qorxmaz qəhrəmanın şəhidlik zirvəsinə yüksəldi, yurdundan 65 nəfər övladın girov götürüldü, mindən çox soydaşın öz ata-baba ocağından sürgün olundu, 103 nəfər isə ömürlük sağlamlığından məhrum edildi. İllərlə daşı daş üstə qoyub yaratdığın isti ocaqların, "Allahu-Əkbər" sədaları ilə dolub-daşan məscidlərin, körpə fidanlarını hər zəng səsində bilik öyrənməyə səsləyən məktəblərin bir göz qırpımında düşmən tapdağı altında xarabazara çevrildi. Ucu şişpapaqlı dağlarının qarlı ətəklərindən başlayaraq hər gün ürəklərə yol tapan, ruzi-bərəkət ətirli tarlalarına hər səfərində həyat bəxş edən Həkəri çayının zümzümə dolu şux sədaları öz yerini qulaqbatıran nalələrlə, həsrət yanğısı ilə könüllərdən qopan, hər sətrində Vətən sevgisi, yurd hicranı hiss edilən şeirlərlə, bayatılarla əvəz olundu. Bir zamanlar cənnət guşəsini xatırladan meşələrində, oylaqlarında, yaylaqlarında sənə həmdəm olan övladların qaçqın, məcburi köçkün adını daşıyaraq sənə dönəcəkləri vüsalı heç zaman qəlblərində sönməyəcək ülvi ümidlərlə ayrıldılar öz isti yurd-yuvalarından. Tək təsəlliləri isə xalqını sevən Vətən oğullarının, öz soydaşlarının onlara sirdaş olması, qulaqlarına inamla pıçıldadıqları "Bir gün Laçına qayıdacaqsınız" sədaları oldu.

El həsrəti, torpaq yanğısı ilə keçən 30 ilin xatirələrindən, acılı günlərindən çox danışmaq olar, Laçınım, çox danışmaq olar. Amma gəl səninlə uzun illərin nisgilindən sonra Zəfər ətrinin doğma Azərbaycanımızın hər qarışına yayıldığı, mərd oğullarımızın sarsılmaz rəşadəti, Ali Baş Komandanın qətiyyətli addımı və xalqımızın "Dəmir yumruq" kimi birləşib əsl hünərvərlik, vətənpərvərlik nümayiş etdirərək dünyaya səs saldığı o həmin tarixdən danışaq – 2020-ci ilin sentyabrında ordumuzun əks-hücumu ilə başlayan 44 günlük şanlı Qarabağ zəfərindən. Sən həmin günləri daha yaxşı xatırlayarsan, bilirəm. İgid oğullarımızın düşmənin canına vahimə salan "Qarabağ Azərbaycandır!" sədalarını ilk eşitdiyin andan illərdir, qəlbində saxladığın ümidlərin, xəyalların heç də puç olmadığını anlamışdın. Birlik və bərabərliyimizlə yaratdığımız, şəninə şeirlər yazılıb, nəğmələr qoşulan "Dəmir yumruğ"un zərbəsi ilə düşmən biabırcasına imzaladığı üçtərəfli Bəyanatla səni, sənin timsalında işğal altında olan torpaqlarımızı doğma xalqımıza, Azərbaycanımıza, bir sözlə, əsl sahibinə qaytardı. Bəlkə də, bu cılız simalı erməni "millətinin" öz tarixində atdığı ilk və son ağıllı addım idi, Laçınım. Çünki anlamışdılar ki, saxta iddialar, sərsəm xəyallar üzərində qurulmuş heç bir şey sonuna qədər sürə bilməz...

Torpağımın zümrüd qaşlı bəzəyi, dağ vüqarlı, Laçınım, artıq sənin timsalında olan digər rayonlarımız kimi, əzəli-əbədi yurdumuz olan Qarabağımız da azadlığa qovuşdu bir ilin sevincini yaşayır. Bu sevincə qovuşmaq vüsalı nə az, nə çox düz 30 il bizi sənin ətrindən, Şuşanın, Kəlbəcərin gözoxşayan mənzərələrindən, Füzulinin, Qubadlının, Cəbrayılın minillik əzəmətli tarixindən ayrı salmışdı. Düşmənin tapdağı altında qalmış torpaqlardan xarıbülbülün nalələri, güllələnmiş heykəllərin əlacsız, süzgün baxışları, eşidilməyən hayqırtıları xalqını da sənin qarşında xəcalətli etmişdi. Ancaq pis günün ömrü az olur, – deyiblər. Belə də oldu. İllərdir, qəlbimizdə nisgil bağlamış bu hicran alovu ilə düşmənin yurdumuza uzatdığı əllərinə qor basıb üçrəngli bayrağı azadlıq və hürriyyətin hopduğu o gül camalından asmağa müvəffəq oldu igidlərimiz. Qəribə deyilmi, Laçınım? 30 il müddətində Qarabağın bir çox yerlərində düşmənin qurduğu və sarsılmaz qala sandığı istehkam məntəqələri düz 44 gün ərzində rəşadətli ordumuzun sarsılmaz gücü, qüdrəti sayəsində məhv edildi. Cəmi 44 gün... Üzdəniraq qonşumuz Ermənistanın qüdrətli sandığı o "yenilməz" ordusunun atıb qaçdığı silah-sursatları, hərbi texnikaları qənimət kimi Bakımızın mərkəzində ordumuzun yenilməzliyini dünyaya çatdıran həqiqət guşəsi, məğrurluq rəmzidir bu gün. Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurlu siyasəti nəticəsində ötən bir il müddətində Qarabağın hər bir guşəsində görülən işlər, icra olunan uğurlu layihələr isə hər birimiz üçün qürurlu addımdır. Belə ki, ölkə başçısı bir neçə dəfə Qarabağın işğaldan azad edilmiş rayonlarına səfər etmiş, burada başlanan bərpa, abadlıq və quruculuq işlərinin, tikilib istifadəyə veriləcək yeni infrastrukturların tarixi əhəmiyyətini dəfələrlə vurğulamış və sözügedən uğurlu addımların davamlı xarakter alacağını diqqətə çatdırmışdır. Bu isə həmin çiçəklənmənin, inkişafın, tərəqqinin canlı şahidi olaraq səni və xalqımızı yenilməz mübarizələrə səsləyən ən gözəl addımdır.

*Azadlıq şirin nemətdir, Laçınım. Gəl səninlə birgə xəyallarımızı qaldıraq azad Vətən səmalarına, üçrəngli bayrağı yoldaş bilək özümüzə. Gələcək xoş günlərindən, işıqlı sabahlarından, günü-gündən gülüstana çevrilən məmləkətinin uğurlarından, övladlarının hər açılan sabahı inamla qarşılamasından danışaq saatlarca. Daha qayıtmayaq taleyindəki qanlı-qadalı illərə. O müstəqillik qoxan asimanından hayqıraq dünyaya, salam verək qayalara, dırmanıb Şuşanı alan şəhid qəhrəmanlara. Könül xoşbəxtliyi ilə deyək ki, Qarabağ Azərbaycandır!*

**Məcid RƏŞADƏTOĞLU**

# Ömrünü millətinə həsr edən Vətən sevdalısı

*Söz Tanrının insan övladına bəxş etdiyi ən böyük nemətdir. Sağlığında bu nemətdən istifadə edənlər dünyadan köçdükdən sonra belə, əbədiyaşarlıq qazanırlar. Söz ustadı, Vətən sevdalısı Məmməd Araz da belə sənətkarlardandır. O da dünyadan köçən gün yenidən doğulan şairlərdəndir.*



Məmməd Araz yaradıcılığına dərin məhəbbət bəsləyən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bu görkəmli sənətkarın yaradıcılığını böyük ustalıqla səciyyələndirərək və yüksək dəyərləndirərək demişdir: ***"Öz əsərləri ilə yüksək bədii sənətkarlıq və əsl vətəndaşlıq qeyrəti aşılayan, doğma Vətəni sonsuz məhəbbətlə sevən, qüdrətli qələmi ilə xalqımıza sədaqətlə xidmət edən Məmməd Arazın poeziyasını Azərbaycan torpağından, tariximizdən, el-obadan ayrı təsəvvür etmək çətindir".***

Məmməd Araz ədəbi yaradıcılığa 1952-ci ildə "İnqilab və mədəniyyət" jurnalında dərc olunan "Yanın, işıqlarım" adlı ilk şeiri ilə başlamışdır: "Vətən torpağı", "Şeirə gətir", "Necə unudum səni?", "Mən Araz şairiyəm". "Məmməd İbrahim" imzası ilə nəşr etdirdiyi bu şeirlər hələ ənənəvi məhəbbət, Vətən və təbiət lirikasının tanış nümunələridir. "Mən də insan oldum", "Əsgər qəbri haqqında ballada", "Atamın kitabı" artıq epik formada, lakin eyni fəlsəfi-psixoloji səpkidə yazılmış poemalardır. Şairin "Babək qılıncı" və "Qarabağ düzü" şeirlərində təbiət xəyala dalır, düşünür, dil açır və danışır. Vətənin tarixi və taleyi təhlil və tərənnüm olunur. Yetmişinci illərin lap əvvəlindən poeziya bulağının bol axara – Araza çevrildiyi ərəfə başlayır. Xalq şairi Məmməd Arazın yaradıcılığında Vətən, vətəndaşlıq, vətənpərvərlik başlıca mövzulardandır. Onun "Ayağa dur, Azərbaycan" kimi bir çox şeiri 90-cı illərdə Azərbaycanın milli müstəqillik uğrunda apardığı mübarizədə xalqın səsi oldu, desək yanılmarıq. Görkəmli şairin "Ayağa dur, Azərbaycan", "Ata millət, ana millət, ağlama", "Bizi Vətən çağırır", "Bu millətin dərdi-səri", "Bu millətə nə verdik ki", "Ulu şahım, qılıncına söykənim" kimi şeirləri oxuyan hər bir insanın qanı qaynayır, bu sətirlər insanları oyanışa, azadlığa çağırır:

*Nə yatmısan, qoca vulkan, səninləyəm!*
*Ayağa dur, Azərbaycan, səninləyəm!*
*Səndən qeyri biz hər şeyi bölə billik!*
*Səndən qeyri biz hamımız ölə billik!*

Bu misralar xalqımızın azadlıq hərəkatı dönəmində hər bir azərbaycanlının, demək olar, əzbərinə çevrilmişdi.

*Gözünü sil, Vətən oğlu, ayağa qalx!*
*Üfüqünə bir yaxşı bax.*
*Sərhədinə bir yaxşı bax.*
*Sərhədinin kəməndinə bir yaxşı bax! –*

səslənişi isə xalqı birləşdirməyə çağırış idi. Bu misraları oxuduqca Vətənin təkcə silahla deyil, qələmlə də qorunduğunun, müdafiə edildiyinin şahidi oluruq.

Şairin yaradıcılığında Vətənimizin hər guşəsi əzizlənib, vəsf edilib. Bu yaradıcılıq nümunələri arasında doğulub boya-başa çatdığı doğma diyar haqqında yazdığı şeirlərin xüsusi yeri var:

*Seyr elə Arazı bir yaz səhəri,*
*Bir tarix dil açır onun səsində.*
*Bu yerin min dərdi, min də kədəri*
*Yazılmış Atabəy məqbərəsində.*

Hər gün hüsnünə yeni-yeni naxışlar vurulan qədim Naxçıvanın gözəlliyi şairin qələmi ilə daha da gözəlləşir. Yurdumun büsatı misralarda söz düzümünə çevrilir:

*Biz nöqtə qoymuşuq acıya, dərdə,*
*Ömrü ulduzlardan almışıq indi.*
*Babamız qəm əkib, qəm biçən yerdə*
*Çiçəkli bağ-bağat salmışıq indi.*

Şair "Naxçıvan albomu", "Bura Naxçıvandır", "Kəndim, balacasan, çox balacasan", "Məmməd Araz qayası", "Mənim Naxçıvanım", "Ata ocağı", "Arpaçay nəğməsi", "Arpaçayın aşıb-daşan nəğməsi", "Naxçıvan" və bir çox əsərlərində bu qədim Oğuz yurdunun bütün gözəlliklərini vəsf edib.

Müqəddəs Nuh məkanının dəyəri düşmənlərimizə də əyan olub. Bu səbəbdəndir ki, yüzillərboyu bu torpaqlara sahiblənməyə çalışıblar, ancaq acı məğlubiyyətdən başqa heç nə əldə edə bilməyiblər. Doğma yurdumuz torpağımıza göz dikənlərə qeyrətdən, Vətən sevgisindən, torpaq təəssübkeşliyindən ucaldılmış bir sədd olub. Çünki bu yurdun hər daşı sevgidən, Vətən məhəbbətindən, palçığı şəhid qanından yoğurulub. Vətən sevdalısı şairin bütün şeirlərində olduğu kimi, "Bura Naxçıvandır" şeirinin hər misrasında bu reallıqlar özünü göstərir:

*Bura Naxçıvandı, Naxçıvan.*
*Bu torpağın daşına da hürən olub,*
*Qumunu da, külünü də eşən olub.*
*Tüstümüzə, odumuza hürən olub.*
*Soyumuza, adımıza hürən olub.*
*Qəlpə-qəlpə daş qoparıb məqam tapıb.*
*Yurdumuzun daşlarından.*
*Yalaq əkmək səriştəli qara əllər,*
*Böhtan əkmək səriştəli ara əllər.*
*Maraqdadır düşmən hələ,*
*Qorxur, qorxur Zəngəzurun*
*Sahibləri qəfil gələr.*
*Bazarçayın, Zəngiçayın,*
*Qaragölün, Üçtəpənin,*
*İşıqlının, İşıqların,*
*Göyçənin, Göyçəgölün*
*Sahibləri birdən gələr!*

Dahi şairin qələmə aldığı bu misralarda Vətən həsrəti, zaman-zaman Vətənimizdən qoparılıb düşmənə pay verilən torpaqların yanğısı gözə çarpır.

Vətən sevdalı şair, rahat uyu məzarında. Yurdunun əsl sahibləri geri döndü. Düşmənin qarşısında öz canıyla sipər olub doğma yurdunu azad etdi igidlərin. Əsgərinin cəsarətindən qorxuya düşən düşmən əsgəri qaçmağa yer tapmayıb Qara göldə sulara qərq oldu. Bütün xalqımız kimi sənin də ən böyük arzun bu Vətənin azadlığı və bütövlüyü idi. Vaxtilə Vətən yanğısı ilə yazdığın sətirlərin insanların ürəyində azadlıq alovuna döndü. İllərlə sönmədi və sonda bir məşəl olub od saldı düşmənin qəlbinə. Azad, bütöv Azərbaycanın Vətən sevdalı şairi, qələmindən süzülən hər misra ilə sən hər zaman yaşayacaqsan bu xalqın yaddaşında. Çünki şəhid ölümü ilə, şair ağrısı ilə qaynayıb-qarışır yaddaşlara.

**Ramiyyə ƏKBƏROVA**

# Taktiki təlimlər keçirilib



"Naxçıvan Qarnizonu Qoşunlarının 2021-ci tədris ilinə uzlaşma planı"na əsasən Əlahiddə Ümumqoşun Ordunun artilleriya, reaktiv, minaatan və tank əleyhinə batareyaları ilə döyüş atışlı taktiki təlimlər keçirilib. Artilleriya bölmələri "Həyəcan" siqnalı ilə daim dislokasiya məntəqələrindən təyinat rayonlarına hərəkət edərkən verilən müdaxiləyə əsasən hərəkətdən birbaşa döyüş düzülüşünə açılaraq döyüş tətbiqinə hazırlanıb.

Döyüş şəraitinə tam yaxınlaşdırılmış şərtlərlə keçirilən taktiki təlimlərdə bölmələrin uzlaşmasına və səhra vərdişlərinin yüksəldilməsinə, taktiki və atəşlə manevrinə geniş yer verilib. "Düşmənin qəfil hücumunun dəf edilməsi və müdafiənin əlverişli hədlər üzrə bərpası zamanı artilleriya bölmələrinin fəaliyyəti" mövzusunda keçirilən təlimlərdə müdafiə olunan bölmələrimizin atəş dəstəyi həyata keçirilib, ən uzaq hüdudlarda pilotsuz uçuş aparatları və digər kəşfiyyat vasitələri ilə aşkar edilmiş düşmən hədəfləri məhv edilib.

Tank təhlükəli istiqamətdə tank əleyhinə batareyalar və düzünə tuşlamaya çıxarılmış toplar şərti düşmənin zirehli texnikalarını sıradan çıxarıb. Əlahiddə Ümumqoşun Ordunun tank əleyhinə batareyaları praktik atışlardan öncə Naxçıvan Qarnizonunun Simulyasiya Mərkəzində xüsusi proqram təminatına malik kompüter və məşq qurğularında müvafiq tapşırıqları icra edib. Təlimlər zamanı Vətən müharibəsində düşmən texnikalarının dəqiqliklə məhv edilməsi tapşırıqlarını uğurla yerinə yetirmiş Əlahiddə Ümumqoşun Ordunun tank əleyhinə bölmələrinin döyüş təcrübəsi gənc heyətlərə öyrədilib, virtual təlim meydançasında döyüş sursatı və yanacaq sərf etmədən müxtəlif şəraitdə atış və atışın idarəolunması həyata keçirilib.

Təlimlərin sonunda bölmələrin fəaliyyəti yüksək qiymətləndirilib.

**Nəriman NƏCƏFOV**

***Məlum olduğu kimi, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Şərq qapısı” qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə” 2021-ci il 1 iyun tarixli Sərəncamı ilə qəzetin 100 illik yubileyi muxtar respublikamızda geniş şəkildə qeyd olunur. Yubiley tədbirləri ilə yanaşı, qəzetin ötən dövrdə fəaliyyəti ilə bağlı aparılmış araşdırmalar da böyük əhəmiyyəti ilə seçilir. Bu işdə qəzetin indiki yaradıcı kollektivinin əməyi danılmazdır. Təsadüfi deyil ki, yubiley ilində qəzet əməkdaşlarının bu istiqamətdə fəaliyyətinin nəticəsi olaraq yeni kitabları işıq üzü görür. Belə nəşrlərdən biri də qəzetin əməkdaşı, iqtisad üzrə fəlsəfə doktoru Əli Cabbarovun “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində yeni nəşr olunmuş “Turizm “Şərq qapısı” qəzetinin səhifələrində. 1940-2021-ci illər” adlı kitabıdır. Onu da qeyd edək ki, kitab Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının qərarı ilə dərs vəsaiti kimi çapa tövsiyə olunmuşdur.***

*Yeni nəşrlər*

# Turizm haqqında yeni dərs vəsaiti

Yubiley ilinə töhfə olaraq hazırlanmış bu kitabda qəzetin 1940-cı illərdən başlayaraq bu gün üçün əhəmiyyət daşıyan turizm, tarix, mədəniyyət mövzusunda yazıları haqqında qısa məlumatlar verilir. Kitab Naxçıvan Muxtar Respublikasının təbii, tarixi-mədəni turizm ehtiyatları barədə qəzetdə dərc olunmuş yazılarla maraqlananlar üçün faydalıdır. Kitabdan bu sahə üzrə tədqiqatçılar, Turizm və jurnalistika ixtisası üzrə təhsil alan tələbələr və digər oxucular istifadə edə bilərlər.

Yeni nəşrdə qeyd olunur ki, turizmin inkişafı geniş miqyasda onun təbliğindən çox asılıdır. Turizm ehtiyatlarının tanıdılması, insanları turizm səfərlərinə sövq edən səfər təəssüratlarının paylaşılması, bu mənada, sektorun inkişafına mühüm təsir edir. Bu barədə yazılan məqalələr, hazırlanan televiziya proqramları və internet resursları turizm səyahətlərinə yollanan insanların təsəvvürlərini dərinləşdirir və edilən səyahətlər üçün motiv rolunu oynayır. Buna görə də hələ televiziya və internet kimi müasir təbliğat vasitələrinin olmadığı bir dövrdə Azərbaycanın rekreasiya-turizm potensialı yüksək olan Naxçıvan Muxtar Respublikasında turizmin təbliğatında “Şərq qapısı” qəzetinin rolu böyük olmuşdur. Turizm XX əsrin fenomeni olmaqla, xüsusən 1950-ci illərdən sonra bütün dünyada geniş vüsət alıb. İkinci Dünya müharibəsinin sona çatması və yeni texnologiyaların insan həyatına daxil olması ilə asudə vaxt və turizm məsələləri də artıq gündəmdə olmağa başlayıb. Ozamankı dünyada iki ən güclü dövlətdən biri olmuş Sovet İttifaqının bir parçası kimi Azərbaycan Respublikası və onun ayrılmaz tərkib hissəsi olmuş Naxçıvan MSSR-də yaşayan insanlar kommunist təbliğatı və gərgin sosializm yarışı mühitində azad səyahət və rekreasiya-turizm xidmətlərindən xeyli dərəcədə kənarda qalmışdı. Bununla bərabər, Naxçıvanda insanların kənar yerlərə səyahət imkanları da zəif olub.

Müəllif qeyd edir ki, bu gün Naxçıvana səfər edən turistlərin əsas motivləri arasında qədim diyarın tarixi abidələri, təbii sərvətləri və qonaqpərvərlik elementləri ilə tanışlıq mühüm yer tutur. Qəzetin arxivinə nəzər saldıqda hələ 1940-cı illərdən başlayaraq Naxçıvanın mineral suları, yaşı min ilə çatan qədim abidələri haqqında olan məqalələri bugünkü turizm ehtiyatları haqqında dərc olunan çoxsaylı yazıların girişi kimi də qiymətləndirmək mümkündür. Şübhəsiz ki, bütün bunlar o zaman çox ciddi şəkildə aparılan kommunizm ideologiyası təbliğatı fonunda çox cəsarətli addımlar idi və həmin dövrdə mərkəzin icazəsi olmadan ayrı-ayrı bölgələrin, xüsusən də Naxçıvan kimi iki kapitalist dövləti ilə həmsərhəd olan bir diyarın turizm cazibəsindən danışmaq böyük qətiyyət və vətənpərvərlik duyğusu tələb edirdi. Məhz buna görə də 100 illik yubileyi qeyd olunan “Şərq qapısı” qəzetinin Naxçıvan Muxtar Respublikasında turizmin təbliğində çox mühüm xidmətləri olduğunu deyə bilərik. Belə ki, hələ keçmiş sovetlər dönəmində turizmin tamamilə dövlət inhisarında olduğu vaxt sərhədyanı bölgə olan Naxçıvana əcnəbi turistlərin səfərləri məhdudlaşdırılmış və qədim diyarın turizm ehtiyatları da istifadəsiz qalmışdı. Bununla belə insanların yaşadığı diyarın sahib olduğu təbii gözəlliklərini, tarixi-mədəni zənginliklərini tanıtmaq, bununla fəxr etmək kimi vətənpərvər hissləri həmişə, hər fürsətdə özünü göstərirdi. Belə unikal imkanları isə hələ 70-80 il əvvəl öncül mətbuat orqanlarından biri olan “Şərq qapısı” qəzeti yaradırdı.




Kitabda bildirilir ki, XX əsrin 50-ci illərindən başlayaraq dünyada geniş vüsət alan turizmin inkişafı bu sahənin geniş təbliğatı ilə mümkün olmuşdur. Naxçıvan Muxtar Respublikasının bir nömrəli mətbu orqanı olan “Şərq qapısı” qəzetinin tarixində turizm, tanıtım və səyahət mövzularında olan yazıları illər üzrə ümumiləşdirsək, onları ötən əsrin 40-90-cı illərini əhatə edən birinci dövr, 1991-1995-ci illəri əhatə edən ikinci dövr, 1996-2010-cu illəri əhatə edən üçüncü dövr və ondan sonrakı mərhələni özündə əks etdirən dördüncü dövrü kimi dəyərləndirmək mümkündür. Təbii sərvətlərimizin turizm cazibəsi haqqında “Şərq qapısı” qəzetinin səhifələrində bir-birindən maraqlı yazıları ötən əsrin 40-50-ci illərinin nömrələrindən başlayaraq tapmaq mümkündür. O zamanlar insanların, xüsusən məktəblilərin pioner düşərgələrində istirahət etdiyi dağ-iqlim kurortları, müalicəvi sular, daha sonra yeraltı şaxtalarda fizioterapiya mərkəzi kimi hər il minlərlə turisti özünə çəkəcək Naxçıvan Duzdağı, axar çaylar, dərman otları ilə zəngin çəmənliklər kimi təbii sərvətlər haqqında olan yazılar qəzetdə tez-tez yer alırdı. Qəzetin səhifələrində ötən onilliklər ərzində Naxçıvanın tarixi abidələri və muzeylərinin də turizm cazibəsini təhlil edən yazılara da rast gəlmək mümkündür. Baxmayaraq ki, qəzet 1950-ci illərdə kütləvi kitabxanaların, klub idarələri və muzeylərin, mətbuat, nəşriyyat, kinoteatr, kütləvi-siyasi tərbiyə vasitələrinin fəaliyyətinin yüksəldilməsində mühüm rol oynamışdı, lakin əsas məqsəd, insanların sovet ideologiyasına uyğun tərbiyəsinə nail olmaq idi. Bununla yanaşı, o dövrdə “Şərq qapısı” qəzetinin səhifələrində Naxçıvanın təbii sərvətləri, tarixi abidələri, turizm potensialı mövzularında müxtəlif müəlliflərin qələmə aldığı yazılara da rast gəlmək mümkündür. Qəzetin nəşr olunduğu sonrakı illərdə də bu ənənə davam etdirilmiş və demək olar ki, hər bir nömrədə qədim diyarın tarixi zənginlikləri, təbii gözəllikləri haqqında yazı və fotoreportajlar verilmişdir.

Əli Cabbarov həmin dövrlər qəzetin səhifələrində gedən yazıları təhlil edərək bildirir ki, indiki kimi birbaşa olaraq insanları turizmə çağıran, asudə vaxtını səyahətlərdə keçirməyi təbliğ edən yazılar olmasa da, biz burada Naxçıvanın turizm imkanlarının təbliği və ümumiyyətlə, “turizm” və “turist” ifadələrinin cəmiyyətə “tanıdılmasını” görürük. O dövrlər qəzetdə Şahbuzun təbiət gözəli Batabat yaylağının ferma məqsədli deyil, gözəl turizm, istirahət guşəsi olduğu dilə gətirilir, dünya səyyahlarının səfərləri haqqında yazılar verilir, Naxçıvanın Əcəmi Seyrəngahı kimi indi də turistlərin çox axın etdiyi məkanlar, qalalar, türbə və muzeylər tanıdılırdı. Müəllif Naxçıvanın cazibədar turizm ehtiyatlarının təbliğinin, hətta Azərbaycan xalqının ən ağır günlərinin yaşandığı 1988-1994-cü illərdə də unudulmadığını diqqətə çatdırır. Qeyd edir ki, bu dövrdən başlayaraq milli özünəqayıdışla qəzet insanların vətənpərvərlik duyğularının atəşi altında alovlu yazıları davam etdirmişdi. O zamanlar Novruz bayramı şənliklərinə icazə verilməsi, müqəddəs Əshabi-Kəhf ziyarətgahına edilən səfərlərin azad olması, daha sonra sərhədyanı ticarətin liberallaşması və dünya azərbaycanlılarının həmrəylik arzularından doğan qovuşmaq istəyi qəzetdə dərc olunan yazıların da motivlərini təşkil edirdi.

Ötən əsrin 90-cı illərində muxtar respublikada bütün sahələrdə durğunluq yarandığını bildirən müəllif yazır: “…Ulu öndər Heydər Əliyevin Naxçıvanda yenidən siyasi fəaliyyətə başlaması “Şərq qapısı” qəzetinin də həyata qayıtması və ağır günlər keçirən muxtar respublikada bütün sahələrdə yeni canlanmanın əsasını qoydu. Ümummilli lider Heydər Əliyevin gərgin fəaliyyəti nəticəsində Naxçıvan diplomatların, əcnəbi jurnalistlərin, iş adamlarının səfər etdiyi region kimi diqqəti çəkirdi. 16 dekabr 1995-ci ildə cənab Vasif Talıbovun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi muxtar respublikanın müasir inkişafında dönüş nöqtəsi oldu. Bundan sonrakı dövrdə bütün sahələrdə, o cümlədən turizmin inkişafında da yeni mərhələ başladı. Bu dövrdən sonra Naxçıvanda həyata keçirilən elmi tədbirlər, simpozium və konfranslar, rəsmi səfərlər turizmin inkişafına mühüm təsir edən amillər olmuşdur. Qədim diyardakı abidələrin tədqiqi və bərpası, muzeylərimizin fəaliyyətinin işıqlandırılması, yeni muzeylərin yaradılması, yaşıllıqların artırılması, biomüxtəlifliyin qorunması ilə yanaşı, həyata keçirilən infrastruktur layihələri öz nəticəsini turizmin də inkişafında göstərmişdir. Naxçıvanda yeni otellərin inşası, mövcud otellərin 5 ulduzlu keyfiyyət standartları səviyyəsində yenidən qurulması, turizmin idarəolunması üzrə aidiyyəti təşkilatların müasir maddi-texniki şəraitlə təmin olunması kimi turizmin inkişafına müsbət təsir edən amillər qəzetin müxtəlif nömrələrinin ilk səhifələrində oxuculara təqdim olunmuşdur…”

Kitabda oxuyuruq ki, 2011-ci ilin ölkəmizdə “Turizm ili” elan olunması “Şərq qapısı” qəzetində də bu istiqamətdə fəaliyyətin yeni dövrün tələblərinə uyğun qurulmasına imkan vermiş, qəzetdə turizm mövzusunda geniş təhlil və təbliğ məzmunlu yazılar dərc etdirilmişdir. Bu dövrdən başlayaraq qəzetin yeni “Naxçıvan Muxtar Respublikasının turizm marşrutları” rubrikasında silsilə məqalələr, muzey ziyarətləri, əcnəbi turistlərin Naxçıvana səyahət təəssüratları, Naxçıvan haqqında xaricdə nəşr olunmuş yazılardan bəhs edən xəbərlər qəzetin səhifələrini oxunaqlı etmişdir. 2012-ci ildə qəzetin internetdə yayımlanması, ayrıca olaraq ingiliscə turizm məzmunlu məqalələrin virtual məkanda yüz minlərlə oxucuya çatdırılaraq Naxçıvana səyahətə gəlmək istəyənlər üçün əsl informasiya komfortu yaratmışdır. Həmçinin kitabda 18 mart 2016-cı il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi” mövzusunda müşavirənin keçirilməsi, aidiyyəti təşkilatlar qarşısında ciddi vəzifələrin qoyulması öz əksini tapmışdır. Qeyd olunur ki, son illərdə muxtar respublikada turizm infrastrukturunun yaradılması sahəsində görülən işlər regiona turist axınını da gücləndirmişdir. Nəticədə, bu gün Naxçıvana gələn hər bir qonaq, hər bir peşəkar səyyah üçün Gəmiqaya zirvəsi, qədim Ordubadın cazibəsi, Əshabi-Kəhf müqəddəsliyi, Haçadağın əyilməz vüqarı, Gurbulağın, Batabatın, Ağbulağın ecazkar təbii gözəllikləri, Əlincənin əsrlərə meydan oxuyan alınmazlığı, Duzdağın şəfa möcüzəsi, Əcəmi sənətinin qüdrəti, Naxçıvanqalanın sirli tarixi unudulmaz təəssüratlarla yadda qalır. Bir sözlə, müasir Naxçıvanın 100 yaşlı “Şərq qapısı” qəzetinin səhifələrində arxivləşərək özünə yer tutan turizmlə bağlı yazılar haqqında maraqlı və təhlili məlumatlar indi artıq “Turizm “Şərq qapısı” qəzetinin səhifələrində. 1940-2021-ci illər” adlı kitabdan da oxuya bilərik.

**Səbuhi HƏSƏNOV**

## “Sabahın tədqiqatçıları”nın uğurları



AMEA Naxçıvan Bölməsi və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin birlikdə reallaşdırdığı “Sabahın tədqiqatçıları” layihəsi artıq üçüncü ildir ki, uğurla davam edir. Layihə çərçivəsində 2021-2022-ci tədris ilində bölmənin 29 elmi əməkdaşı və muxtar respublikanın ümumtəhsil məktəblərindən 50 şagirdin iştirakı ilə 36 layihənin həyata keçirilməsi nəzərdə tutulub. Layihələrin icrası zamanı şagirdlərə elmi-tədqiqat aparmaq, nəzəri biliklərin tətbiqi, sistemləşdirilməsi kimi bacarıqlar aşılanır. Beynəlxalq səviyyəli müsabiqə və olimpiadalarda iştirak edən Naxçıvan məktəbliləri parlaq zəka nümayiş etdirirlər.

Gənc nəsildə elmə marağın artırılmasında səmərəli fəaliyyət göstərən alimlərdən biri də AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun Hidrogeologiya və mineral sular laboratoriyasının müdiri, kimya üzrə fəlsəfə doktoru, dosent Fizzə Məmmədovadır. Hazırda onun rəhbərliyi ilə dörd məktəbli iki layihə üzərində çalışır.

“Naxçıvan Muxtar Respublikası ərazisindəki yeraltı suların fiziki-kimyəvi xassələrinin təyini” layihəsinin icraçısı, Naxçıvan şəhər 3 nömrəli tam orta məktəbin X sinif şagirdi Fərid Cabbarov və “Naxçıvan Muxtar Respublikası ərazisindəki artezian sularının tədqiqi” layihəsinin icraçısı, Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbin X sinif şagirdi Ramiz Səfərli Erudit onlayn Beynəlxalq kimya müsabiqəsinə qatılmış, hər iki şagird I dərəcəli diplom və qızıl medala layiq görülmüşdür.

Bununla yanaşı, məktəblilər kimya fənni üzrə Moskvada keçirilən “Bilik zamanı” (“Vremya znaniy”) Ümumrusiya olimpiadasında və Sankt-Peterburqda baş tutan onlayn “Prestij” Beynəlxalq Təhsil Portalının “Ətrafımızdakı kimya” olimpiadasında 1-ci yerə çıxmış, I dərəcəli diplomla mükafatlandırılmışlar.

Qeyd edək ki, dosent Fizzə Məmmədova məktəblilərə göstərdiyi səmərəli elmi rəhbərliyə görə müsabiqələrin münsiflər heyəti adından minnətdarlıq məktubu almış, I dərəcəli diplom və medalla mükafatlandırılmışdır. “Sabahın tədqiqatçıları” layihəsində məhsuldar fəaliyyəti ilə seçilən tədqiqatçının ardıcılları bu günə qədər müxtəlif beynəlxalq səviyyəli müsabiqə və layihələrdə ölkəmizi uğurla təmsil etmiş və ümumilikdə, 1 gümüş və 8 qızıl medala, 16-sı I dərəcəli olmaqla, 18 diploma layiq görülmüşlər. Məktəblilərin hazırladıqları elmi məqalələr müxtəlif toplularda dərc olunub.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## Maarifləndirici tədbir təşkil edilib

Dünən Naxçıvan Qızlar Liseyində Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası publik hüquqi şəxsin həkimləri tərəfindən “İlkin tibbi yardımın əsasları” barədə maarifləndirici seminar təşkil edilib.



Seminarda iştirak edən altı həkim tərəfindən IX, X, XI sinif şagirdlərinə zəhərlənmələr, bayılma, asfiksiya, hipertermiya, yanıqlar və sair mövzularda informasiyalar verilib.

Qeyd edək ki, bu tədbirlər mütəmadi olaraq digər orta təhsil müəssisələrində də həyata keçirilir.

## Bağça tərbiyəçiləri üçün seminar

Naxçıvan şəhər 1 nömrəli uşaq bağçasında tərbiyəçilərin pedaqoji səriştəliliyinin artırılması və qabaqcıl təcrübənin öyrənilməsi məqsədilə seminar keçirilib.



Seminarda bağçanın tərbiyəçiləri Fərizə Salahlının “Bədii təfəkkürün inkişafı məşğələlərinin təşkili”, Şəfa Bağırovanın “Bədii təfəkkürün inkişafı məşğələsində yaradıcı təxəyyülün inkişafı” və Təranə Seyidovanın “Bədii təfəkkürün inkişafı məşğələlərində rabitəli nitqin inkişafı” mövzularında məruzələri dinlənilib. Çıxış edənlər bildiriblər ki, muxtar respublikamızda uşaqların yüksək mənəvi mühitdə, milli dəyərlər əsasında tərbiyəsi, təhsil alaraq layiqli şəxsiyyət kimi yetişməsi diqqətdə saxlanılır, məktəbəqədər təhsilin inkişafı ilə bağlı bir sıra tədbirlər görülür, maarifləndirici seminarlar təşkil olunur.

Diskussiya şəklində keçirilən seminarda mövzular ətrafında müzakirələr aparılıb.

**Xəbərlər şöbəsi**

### *İtmişdir*

Şərur rayonunun Tumaslı kənd sakini Abdullayev Tahar Rza oğlunun adına olan 27A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Əlizadə Fariz Murad oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Ələkbərov Habil Ağacan oğlunun adına olan avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 1001